# Şanlı tariximiz

Ötən il sentyabrın 27-də başlanan və Azərbaycanın hərb tarixinə əbədilik həkk olunan Vətən müharibəsinin birinci günü Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə ölkəmizdə Anım günü kimi böyük qürur hissi ilə qeyd edildi.

Anım günü münasibətilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dolğun və məzmunlu çıxışında Azərbaycanın tarixi torpaqlarının zaman-zaman qəsbkarlar tərəfindən nə məqsədlə işğal olunmasına, erməni-daşnak qüvvələri və onların havadarlarının dəstəyi ilə Dağlıq Qarabağın, ətraf rayonların və ölkəmizin Ermənistanla sərhəd qəsəbə və kəndlərinin hansı səbəbdən 30 ilə yaxın işğal altında saxlanmasına xüsusi aydınlıq gətirdi. Ötən əsrin 80-90-cı illərində Azərbaycanda yaşayan, bu ölkənin çörəyini yeyib, suyunu içən ermənilər yerli azərbaycanlı əhalisinə qarşı terror əməlləri həyata keçirmiş, günahsız insanların, qocaların, körpələrin həyatına son qoymuş, kəndləri və evləri dağıtmışdılar. 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin zəbt etdiyi Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı rayon, qəsəbə və kəndlərdə yaşayış evləri ilə yanaşı, xəstəxanalar, məktəblər, klublar, kitabxana və mədəniyyət sarayları, bir sözlə, bütün sosial obyektlər məhv edilmişdir. Ali Baş Komandan çıxışında qeyd etdiyi kimi, işğal altında olan ərazilərdə daha çox zərər çəkən dini abidələrimiz - məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Ermənilər məscidlərin içərisində donuz və ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdirmişlər. 66 məsciddən 65-i tamamilə məhv edilmişdir. Mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid idi.

Azərbaycan Prezidentinin kompromis təkliflərinə, tələb və tövsiyələrinə, beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan işğalçıları mənfur niyyətlərini davam etdirir, yeni ərazilər zəbt etmək istəyi ilə Azərbaycan kəndlərini atəşə tutur, insanları qorxu və təhlükə altında saxlayır, müxtəlif terror aktları törədirdilər. Sovet dönəmində hissə-hissə ermənilərə bəxşiş edilən torpaqlarımızın zəbt edilməsinə, eləcə də 30 il ərzində ermənilər tərəfindən milli dövlətçiliyimizə və azərbaycanlılara qarşı törədilən qanlı cinayətlərlə barışmayan xalqımız 27 sentyabr 2020-ci ildə Azərbaycan Prezidentinin əmri ilə bu haqsızlıqlara qarşı müharibəyə başladı. Zəfərə gedən yolun ilk günündən xalq Ali Baş Komandanın ətrafında sıx birləşərək 200 ilə yaxın davam edən ədalətsizliyə, haqsızlığa son qoymaq və öz dədə-baba torpaqlarını işğaldan azad etmək uçun ölüm-qalım savaşına qalxdı. Ali Baş Komandanın rəhbərliyi altında 44 gün ərzində Ermənistan silahlı qüvvələrinin 5-6 səddən ibarət istehkamları, canlı qüvvə və texnikaları məhv edildi, nəhayət, noyabrın 8-də Ermənistan silahlı qüvvələri təslimçiliklə barışıb ağ bayraq qaldırmaq məcburiyyətində qaldı.

Zəfərə gedən bu yolda Azərbaycan Ordusunun yüzlərlə zabit və əsgəri, hətta generalı belə şəhidlik zirvəsinə yüksəldi, minlərlə gənc qazi oldu. Azərbaycan xalqı şəhidlərimizi öz qəlbində əbədi yaşadacaq, qazilərimizə və bu müharibədə iştirak edən hər kəsə böyük ehtiram və hörmət bəsləyəcək. Ali Baş Komandanın dediyi kimi, II Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaqdır.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 1 oktyabr.- S.8.